# “Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyaları ənənə halı alıb

## “Ölkəmizi tanıyaq” tur-aksiyasının iştirakçıları ilə görüş

(Əvvəli 3-cü səhifədə).

ri, KİV nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova tur-aksiya iştirakçılarını salamlayaraq artıq altıncı ildir Azərbaycanın ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin “Ölkəmizi tanıyaq” devizi altında Vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyaları təşkil olunduğunu bildirib.

Dövlətimizin başçısı cənab İlham Əliyevin tövsiyəsinə əsasən, Prezident Administrasiyasının təşkilatçılığı ilə keçirilən tur-aksiyaların ənənə halını aldığını qeyd edən Ətayə Osmanova layihənin əsas məqsədinin şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaratmaq olduğunu vurğulayıb.

Noyabrın 13-dən 16-dək ölkəmizin cənub bölgəsinə, Lənkəran-Masallı-Astara rayonlarına təşkil olunacaq tur-aksiyada respublika fənn olimpiadalarının qalibləri, fəal idmançılardan ibarət 40 nəfər məktəblinin iştirakının nəzərdə tutulduğunu diqqətə çatdırılıb.

Tədbirdə çıxış edən Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin müəllimi Ruslan İsmayılov, şəhər 5 nömrəli tam orta məktəbinin şagirdi Selcan Rəfizadə və başqaları “Ölkəmizi tanıyaq” tur-aksiyasına görə ölkə başçısı İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildiriblər.

Sonda tur-aksiya iştirakçıları üçün Heydər Əliyev Mərkəzinin ekspozisiyazalına ekskursiya təşkil olunub.

**“Qəbələ”**

## Qəbələ rayonuna səfər ediblər

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, noyabrın 13-dən 21-dək respublikamızın şəhər və rayonlarının IX-XI sinif şagirdləri üçün nəzərdə tutulan “Ölkəmizi tanıyaq” adlı növbəti maarifləndirici tur-aksiyaya start verilib.***



Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə keçirilən tur-aksiyada iştirak edən Lənkəran, Astara, Masallı, Lerik, Yardımlı, Cəlilabad, Biləsuvar, Xızı və Abşeron məktəblilərindən ibarət 9 qrup noyabrın 13-də günorta saatlarında Qəbələyə çatıb.

Şagirdləri rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova və RİH-nin digər məsul işçiləri qarşılayıb.

“Qafqaz Karvansaray” və “Qafqaz Sport” otellərinə yerləşən şagirdlər nahar etdikdən sonra şəhərin Zərifə Əliyeva prospektində ağacəkmə aksiyası keçirib.

Qəbələ ilə tanışlıq zamanı Nohur gölü turizm və istirahət mərkəzi şagirdlərin böyük marağına səbəb olub. Onlar sıx meşəlik və dağlıq ərazidə yerləşən gölün ətrafında gəzintiyə çıxıb, orada xatirə şəkilləri çəkdiriblər.

Yengicə kəndindəki “Zoopark”a ekskursiya edən şagirdlərə orada bəslənilən heyvanlar barəsində ətraflı məlumat verilib.

Axşam saatlarında məktəblilər üçün musiqili-əyləncəli proqram və intellektual oyunlar təşkil edilib.

**“Qəbələ”**

## Məktəblilər Qəbələ ilə tanış olublar

“Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində respublikamızın



şimal-qərb bölgəsinə səyahətə çıxan Lerik, Astara, Lənkəran, Yardımlı, Masallı, Cəlilabad, Biləsuvar, Xızı və Abşeron rayonlarının məktəbliləri ekskursiyanın üçüncü günü - noyabrın 15-də Qəbələ rayonunun tarixi məkanları, müasir istehsal müəssisələri, turizm və istirahət mərkəzləri ilə tanış olublar.

Tur-aksiya iştirakçıları əvvəlcə Heydər Əliyev Mərkəzində olub, ulu öndərin həyat və fəaliyyətini əks etdirən fotoşəkillərə baxıblar.

Sonra onlar Qəbələ Konserv Zavoduna və “Tufandağ” Qış-Yay Turizm İstirahət Kompleksinə səyahət ediblər. Məktəblilər kanat yolu ilə uca dağların zirvəsinə qalxaraq oradan Qəbələ şəhərinin mənzərəsini seyr edib, xatirə şəkli çəkdiriblər.

Heydər Əliyev Konqres Mərkəzi ilə tanışlıq zamanı hər il reallaşan Qəbələ Beynəlxalq Musiqi Festivalının məhz burada keçirildiyi diqqətə çatdırılıb.

“Qəbələnd” İstirahət və Əyləncə Mərkəzinə ekskursiya da məktəblilərin ürəyincə olub.

Tur-aksiya iştirakçıları günün ikinci yarısında Nic qəsəbəsindəki “Cotari” alban-udi kilsəsinə baş çəkiblər.



Məktəblilər Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğuna da gedib, qədim Qəbələ şəhərinin qalıqları və ərazidə aparılan arxeoloji qazıntıların nəticələri, eləcə də Qəbələ Arxeoloji Mərkəzində nümayiş olunan maddi-mədəniyyət nümunələri ilə tanış olublar.

Tur-aksiya iştirakçıları şam yeməyindən sonra intellektual yarışlarda öz biliklərini nümayiş etdiriblər.

**“Qəbələ”**

## Tur-aksiya iştirakçıları Qəbələdən zəngin təəssüratlarla ayrılıblar

***Qəbələ şəhərindəki “Karvansaray” və “Qafqaz Sport” otellərində qalan 360 məktəbli və onları müşayiət edən şəxslər ekskursiya müddətində Qəbələ, Şəki və Zaqatala rayonlarındakı görməli yerlərlə, muzeylərlə, tarixi məkanlarla yaxından tanış olublar.***

Şagirdlər ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış olub, onlarda Prezident İlham Əliyevin



qətiyyəti və iradəsi ilə respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə əyani təsəvvür yaranıb.

Noyabrın 15-də axşam tur-aksiya iştirakçıları “Nə? Harada? Nə vaxt?” intellektual oyununda növbəti dəfə bilik və bacarıqlarını nümayiş etdiriblər.

Qaliblər kubok, medal və sertifikatlarla mükafatlandırılıblar.

Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə ekskursiyaya başlayan Lerik, Astara, Lənkəran, Yardımlı, Masallı, Cəlilabad, Biləsuvar, Xızı və Abşeron məktəblilərindən ibarət qruplar noyabrın 16-da ekskursiyalarını başa vuraraq Qəbələ şəhərindən yaşadıqları rayonlara yola düşüblər.

**“Qəbələ”**